# Qəbələnin üzüm və şərabçılıq məhsulları xarici ölkələrə də ixrac olunur

Ölkəmizin torpaq, iqlim şəraiti burada üzümçülüyün böyük sahələrdə və ilboyu intensiv becərilməsi üçün çox əlverişlidir. Elə bu baxımdan da kənd təsərrüfatının bu mühüm sahəsi daim diqqət mərkəzində saxlanılır, və inkişaf etdirilməsinə böyük qayğı göstərilir. Respublikamızın iri aqrar rayonlarından olan Qəbələdə də kənd təsərrüfatının bu sahəsinə xüsusi önəm verilir. Belə ki, son vaxtlar Qəbələdə üzümçülük sahəsinin dirçəldilməsi, onun keçmiş şöhrətinin özünə qaytarılması üçün mühüm tədbirlər həyata keçirilir.

"2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq hazırda rayonda bu sahənin inkişaf etdirilməsi istiqamətində fiziki və hüquqi şəxslər tərəfindən ardıcıl işlər görülür. Cari ildə fermerlər tərəfindən 15 hektar sahədə yeni üzüm bağı salınıb. Hazırda burada bar verən üzüm bağları 480 hektardır.

Hələ keçmiş sovetlər dövründə rayonda 1100 hektardan artıq üzüm sahələri olub və üzümün ilkin emalı müəssisələri fəaliyyət göstərib. Məlum antialkoqol tədbirləri çərçivəsində həmin üzüm sahələri tamamilə məhv edilmişdi. Lakin, son vaxtlar rayonda üzümçülük və şərabçılığın inkişafı diqqət mərkəzindədir. Hazırda rayonda iki hüquqi və bir fiziki şəxs tərəfindən yeni üzüm plantasiyalarının salınması istiqamətində işlər aparılır. Bu il rayonun üzümçülük təsərrüfatlarından 3743 ton məhsul tədarük olunub.

İndiyədək "Aqro-Azərinvest" MMC tərəfindən 165 hektar sahədə, "Aspi-Aqro" MMC tərəfindən 340 hektar sahədə, fiziki şəxs Fədail Rəhimov tərəfindən isə 26 hektar sahədə yeni üzüm plantasiyaları salınıb. Sahələrə Gürcüstandan calaqlı texniki üzüm sortları, eləcə də Özbəkistandan süfrə üzümü sortları gətirilərək əkilib. Rayonda üzümçülüyü və şərabçılığı ildən-ilə inkişaf etdirməyi qarşıya məqsəd qoyan "Aqro-Azərinvest" MMC tərəfindən Qəbələdə şərab istehsalı zavodu, "Aspi-Aqro" MMC tərəfindən isə üzüm emalı zavodu inşa olunub.

Rayonun Qaradeyn kəndi ərazisində "Aspi-Aqro" MMC-nin "Aspi Winery" üzüm emalı zavodunun fəaliyyətə başlaması bölgədə üzümçülüyün inkişafına təkan verib. Zavodun inşasında və yeni üzüm bağlarının salınmasında əsas məqsəd Qəbələ rayonunda şərabçılığın əvvəlki şöhrətinin bərpa edilməsi və Azərbaycan süfrəsinin dünyanın ən gözəl, yüksək keyfiyyətli üzüm növləri və şərab çeşidləri ilə təmin olunmasıdır. Müəssisə öz fəaliyyətində müasir texnologiyanın tətbiqinə və Azərbaycan şərabçılarının ənənələrinə əsaslanaraq, üzümün yetişdirilməsindən yüksək keyfiyyətli şərab və konyak məhsullarının buraxılışınadək tam bir istehsal prosesini özündə birləşdirir.

"Aspi-Aqro" MMC üzümçülük tingləri istehsalı və satışı üzrə dünyanın ən qabaqcıl şirkətləri olan İtaliyanın "VİVA Cooperative Rausedo" VCR və Fransanın "Gontard Freres" şirkətləri ilə sıx əlaqə yaradaraq Qəbələ rayonunda nadir iqlim şəraitinə malik, vaxtilə şərab sənayesinin çiçəkləndiyi yerdə – Böyük Qafqaz dağlarının ətəklərində, Savalan vadisində geniş üzüm sahələri salıb. Ərazinin dəniz səviyyəsindən 400 metr yüksəklikdə yerləşməsi, illik yağıntıların miqdarı, temperatur göstəriciləri və müxtəlif yerlərdən götürülmüş torpaq nümunələrinin İtaliya və Fransa şirkətlərinin laboratoriyalarında aparılmış analizləri Qəbələdə yüksək keyfiyyətli nadir üzüm növlərinin yetişdirilməsinin mümkünlüyünə əsas verir. Bu göstəricilərə əsasən ərazidə əkilən üzüm növləri və onların kök sistemləri seçilib. Seçilən növlər üzrə rayona yüksək keyfiyyətli üzüm tingləri gətirilib və onlar mövcud normativlər və lazımi aqrotexniki tədbirlərin həyata keçirilməsi əsasında əkilib. Üzüm bağlarında əkin və becərmə işləri aparmaq üçün xüsusi texnika da alınıb. Bütün bu amillər ixrac qabiliyyətli yüksək keyfiyyətli məhsul istehsalına təminat verir.

"Aspi Winery" üzüm emalı müəssisənin illik istehsal gücü 1000 tondur. Zavod İtaliyanın ən məşhur şirkətlərinin avadanlığı ilə təchiz olunub. Hazırda burada 7 növ məhsul istehsal olunur. Gələcəkdə 11 növ məhsulun istehsalı planlaşdırılır. Burada istehsal olunan "Savalan" şərablarını məşhurlaşdıran hər şeydən əvvəl ideal coğrafi və iqlim şəraitidir. Belə şəraitdə yetişmiş üzüm özünəməxsus xüsusiyyətlərə malik şəraba çevrilir. Bu, əsrlərlə formalaşan ənənələrin və müasir şərabçılıq meyillərinin ahəngidir.

Zavodda konyak və şərab məhsulları yüksək ixtisaslı xarici mütəxəssislərin rəhbərliyi ilə istehsal olunur və yoxlanılır. Şərablar müəyyən olunmuş bütün normalara riayət edilməklə zirzəmidə palıd çəlləklərdə saxlanılır ki, bu da ona əlavə ətir verir. İstehsal olunan şərab məhsulları Rusiyaya ixrac edilir. Şərabların gələcəkdə Ukrayna Respublikasına, İtaliyaya, İsveçə və başqa ölkələrə ixrac edilməsi də planlaşdırılır.

Zavodda ən müasir avadanlıqla təchiz edilən laboratoriya yaradılıb. İstehsal olunan məhsullar İngiltərədən alınan və MDB məkanında yalnız bu müəssisədə quraşdırılan lazer analiz aparatı ilə yoxlanır. Bu aparat kimyəvi preparatlarsız işləyir və bir dəqiqə ərzində şərabın və ya üzüm şirəsinin 24 parametrini maksimal dəqiqliklə müəyyən etməyə imkan verir. Standart laboratoriyalarda bu cür analizlər iki həftədən çox vaxt aparır.

Üzüm emalı müəssisəsinə məxsus sahədə İtaliyadan gətirilən 22 sort şərab və 14 sort süfrə üzümləri əkilib. Bu il həmin üzüm bağlarından 900 tona yaxın məhsul toplanıb. Burada 200 nəfər işlə təmin edilib. Ən başlıcası isə hazırda bu müəssisə Qəbələ rayonunda əhalinin məşğulluğunun təminatında əhəmiyyətli rol oynayır.

**«Qəbələ».**

# Özbəkistan portalları Qəbələ haqqında yazır

Özbəkistanın 1.news.uz, uchildiz.uz və podrobno.uz portalları "Qəbələ–Azərbaycanın qədim şəhəri və turizmin parlayan ulduzu" adlı məqalə yaymışdır.

Məqalədə deyilir ki, 900 il Qafqaz Albaniyasının paytaxtı olan Qəbələ Böyük Qafqaz dağlarının cənub ətəyində, Bakı şəhərindən 220 kilometr məsafədə yerləşir. Qafqaz Albaniyasının paytaxtı olan antik şəhərin xarabalıqlarının və əsas qapısı hesab edilən "Qala qapısı"nın abidə kimi qorunduğu və günümüzə qədər gəlib çatdığı, ərazidə müxtəlif dövrlərə aid çoxlu tarixi və mədəni abidələrin mövcudluğu bildirilir. Əmili kəndində IV-VIII əsrlərə aid "Kilsədağ məbədi"nin qalıqlarının, Həzrə kəndində XV əsrə aid Şeyx Bədrəddin və Şeyx Mənsur məqbərə kompleksinin, Bum kəndində XIX əsrə aid məscidin möhtəşəmliyi qeyd olunmaqla, ərazidə bu qəbildən xeyli digər abidələrin də olduğu göstərilir. Yazıda Çuxur Qəbələ kəndi yaxınlığında aparılan arxeoloji qazıntılar nəticəsində e.ə. IV-III əsrlərdən e. XVIII əsrinə qədər Qəbələnin Azərbaycanın inkişaf etmiş ticarət, sənətkarlıq mərkəzi və böyük şəhərlərindən biri olduğunun sübut edildiyi diqqətə çatdırılır. Sovet dövründə Qutqaşın adlanan Qəbələnin tarix və memarlıq abidələri ilə zəngin olduğu, aparılan qazıntılar zamanı unikal mədəniyyət nümunələrinin aşkar edildiyi göstərilir.

Həmçinin bildirilir ki, regionun füsunkar təbiəti, mülayim iqlim şəraiti turizmin inkişafı üçün yeni perspektivlər açır, və bu gün Qəbələdə turizmin inkişafı istiqamətində mühüm işlər görülür.

Azərbaycanın turizm diyarı olan Qəbələdə beşulduzlu otellərin, brend restoranların fəaliyyət göstərdiyi işıqlandırılan məqalədə, qonaqların və turistlərin istirahəti üçün burada müasir standartlara uyğun şəraitin yaradıldığı vurğulanır.

Məqalədə eləcə də Azərbaycanda açıq səma altında ən böyük park attraksionu olan "Gabaland" haqqında məlumat verilir. Bildirilir ki, son illər qış turizminin inkişafı istiqamətində mühüm işlər görülən Qəbələdə, məşhur "Tufandağ" qış-yay turizm kompleksi fəaliyyət göstərir.

Bundan başqa, Qəbələnin Azərbaycanın mədəniyyət mərkəzinə çevrildiyi, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 2009-cu ildən başlayaraq hər il bu şəhərdə beynəlxalq musiqi festivallarının keçirildiyi diqqətə çatdırılır.

Məqalənin sonunda Azərbaycan Prezidenti İlham Əliyevin Qəbələ şəhəri ilə bağlı çıxışından sitat verilir: "Qəbələ Azərbaycanın mədəniyyət və turizm mərkəzinə çevrilmişdir".

# Təbrik edirik!

Azərbaycan Respublikası Təhsil Nazirinin 11/1013 nömrəli 5 oktyabr 2015-ci il tarixli əmri ilə təhsilin inkişafı sahəsində xidmətlərinə, gənc nəslin təlim-tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiyinə görə Qəbələ Rayon Uşaq-Gənclər İdman Məktəbinin direktoru Əliyev Ədalət Məhəmmədiyyə oğlu «Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi» fəxri adı ilə təltif edilmişdir.

**«Qəbələ».**

# Monteneqronun teleradio kanalı Qəbələnin turizm potensialından bəhs edib

Monteneqronun RTCG radio və televiziya kanalının saytında Azərbaycanın Qəbələ rayonunun turizm imkanlarından, bu sahənin inkişafına böyük investisiyaların yatırılmasından bəhs edən yazı yerləşdirilib.

Yazıda qeyd olunur ki, Azərbaycanın şimalında yerləşən Qəbələ gözəl təbiətə malik və sürətlə inkişaf edən bir şəhərdir. Burada ən müasir otellər və müasir standartlara cavab verən turizm obyektləri fəaliyyət göstərir.

Məqalədə, həmçinin Monteneqronun Azərbaycandakı fəxri konsulu Vüqar Əliyevin fikirlərinə də yer verilib. O deyib ki, azərbaycanlı investorlar müxtəlif sahələrdə, o cümlədən turizm sektorunda Monteneqroya sərmayə yatırmağa maraq göstərirlər. Fəxri konsul bu ölkənin Jablyak bölgəsində Qəbələdəki "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinə bənzər turizm obyektinin tikilməsinin nəzərdən keçirildiyini buna misal göstərib.